**3.7.9** Tarif Razılaşması İştirakçıları dəmir yolları müdiriyyətinə mənsub olmayan daşınma vasitələri, transportyorlarda (mənsubiyyətindən asılı olmayan) geri qaytarılarkən daşınma haqqı bu Tarif Siyasətinin vaqon göndərmələri üçün nəzərdə tutulmuş qaydalara əsasən hesablanır və bu vasitələrin **hesablama çəkisi 10 tondan az götürülmür.**

## 3.8. Müxtəlif adlı yüklərdən ibarət olan və bir qaimə ilə daşınmasına icazə verilən daşımalar

Müxtəlif adlı yüklərdən ibarət olan və bir qaimə ilə birgə daşınmasına icazə verilən vaqon göndərməsi yığma adlanır. Müxtəlif YHN kodları olan yüklər müxtəlif adlı yüklər hesab olunur.

Yığma göndərməni daşımaya təqdim edən zaman yükgöndərən qaimədə hər bir yükün çəkisini ayrılıqda göstərməlidir.

**3.8.1.** Əgər yığma vaqon göndərməsinə əndazəsiz yük daxildirsə, bu vaqonun daşıma haqqı əndazəsiz yüklərin daşıma haqqı kimi 3.5 bəndində göstərilən qaydalara əsasən hesablanır.

Əgər yığma vaqon göndərməsinə bir və daha çox müxtəlif əndazəsizlik dərəcəsi olan yük daxildirsə, bu halda daşınma haqqı bu Tarif Siyasətinin 3.5.1.4. bəndinə müvafiq olaraq yükün ümumi çəkisinə daşınmaya daxil olan yüklərin ən yuxarı əndazəsizlik dərəcəsinə uyğun tarif tətbiq edilməklə hesablanır.

**3.8.2.** Yığma vaqon və konteyner göndərməsi ilə daşınan yüklərin daşınma haqqı hər bir yük üçün, onun göndərmənin ümumi çəkisinə uyğun çəki kateqoriyasına müvafiq baza tarifləri ilə hesablanır. Əgər hər hansı bir yükün çəkisi ayrı göstərilməyibsə, onda daşınma haqqı həmin yük üçün nəzərdə tutulmuş ən yüksək tariflə hesablanır.

Yığma vaqon göndərməsinin daşınma haqqı, göndərməyə daxil olan yüklərin daşınma haqlarını toplamaqla hesablanır. Hər bir yükün ayrılıqda daşınma haqqı, vaqonda olan yükün ümumi çəkisinə müvafiq olan tarif qiymətini, hər bir

göndərmənin tona qədər (yuvarlaqlaşdırılmış) hesablama çəkisinə (Cədvəl 1) vurmaqla (əgər həmin yük üçün əmsallar varsa tətbiq edilməklə) hesablanır. Yükün çəkisi (yuvarlaqlaşdırılarkən) 500 kq və artıq olduqda tam tonadək artırılır, 500 kq-dan az olduqda nəzərə alınmır.

**3.8.3.** Əgər göndərməyə daxil olan ayrı-ayrı yüklərin ümumi çəkisi 10 tondan az olarsa, onda hər bir yükün daşınma haqqı, 10 ton çəki kateqoriyasına uyğun tarif qiymətini göndərməyə daxil olan hər bir yükün ayrılıqda tonadək yuvarlaqlaşdırılmış çəkisinə vurmaqla (əgər həmin yük üçün əmsallar varsa - tətbiq edilməklə) hesablanır. Göndərməyə daxil olan hər bir yükün hesablama çəkisini təyin etmək üçün yükün faktiki çəkisini yığma vaqon göndərməsinin faktiki çəkisinə bölüb 10 tona vurmaq lazımdır.

**3.8.4.** Əgər yığma göndərməyə daxil olan yükün çəkisi 500 kq-dan az olarsa, bu halda daşınma haqqı tam ton üçün hesablanır.

**3.8.5.** İzotermik vaqonlarda yığma vaqon göndərmələrinin daşınma haqqı hesablanarkən minimal çəki norması 25 ton götürülür. Əgər göndərməyə daxil olan ayrı-ayrı yüklərin ümumi çəkisi 25 tondan az olarsa, onda hər bir yükün daşınma haqqı, 25 ton çəki kateqoriyasına uyğun tarif qiymətini göndərməyə daxil olan hər bir yükün ayrılıqda tonadək yuvarlaqlaşdırılmış çəkisinə vurmaqla (əgər həmin yük üçün əmsallar varsa tətbiq edilməklə) hesablanır. Göndərməyə daxil olan hər bir yükün hesablama çəkisini təyin etmək üçün yükün faktiki çəkisini yığma vaqon göndərməsinin faktiki çəkisinə bölüb 25 tona vurmaq lazımdır.

Tez xarab olmayan yüklərin daşınması üçün örtülü vaqon əvəzinə verilən izotermik vaqonda (daşıma sənədlərində bu Tarif Siyasətinin 3.1.2.1. və 3.1.2.2. bəndlərində göstərilən qeydlər olunmaqla) daşınan yığma göndərmənin daşınma haqqı bu Tarif Siyasətinin universal vaqonlarda vaqon göndərmələri üçün nəzərdə tutulmuş qaydalarla hesablanır və bu zaman yığma göndərməyə daxil olan hər bir yükün ayrılıqda daşınma haqqı, göndərməyə daxil olan yüklərin ümumi çəkisinə müvafiq olan çəki kateqoriyasına uyğun olan tarif qiyməti ilə müəyyən edilir.

**3.8.6.** Bir daşınma sənədi ilə qoşqudakı vaqonlarda daşınan yığma yükün daşınma haqqı, bu Tarif Siyasətinin 3.5.2.1. bəndinə uyğun olaraq, bu göndərmənin tərkibində ən yüksək tariflə daşınan yükün qiymətinə görə hesablanır.

**3.8.7.** Daşınma vasitələri tətbiq olunmaqla yığma vaqon göndərməsi ilə daşınan yüklərin daşınma haqqı, daşınma vasitələrinin kütləsi də daxil olmaqla yükün ümumi kütləsinə görə yuxarda göstərilən qaydalara uyğun olaraq hesablanır. Bundan əlavə daşıma vasitələri hansı yükün daşınması üçün istifadə edilirsə, həmin yükün ümumi kütləsi ilə cəmləşdirilir. Əgər daşınma vasitələrinin hansı yükün daşınması üçün istifadə edildiyi göstərilməyibsə, bu halda onların kütləsi yığma göndərmənin tərkibində ən yüksək tariflə daşınan yükün kütləsi ilə cəmlənir.

## 3.9. Yükləri müşayiət edən bələdçinin, avtoqatar və avtomobil sürücülərinin gediş haqlarının hesablanması

Yükləri müşayiət edən bələdçinin, avtoqatar və avtomobil sürücülərinin gediş haqqı gedilən məsafənin hər başlanılan 100 km-nə, hər bələdçi üçün **12,00 isveçrə frankı** ilə hesablanır. 100 km sayını keçdikdən sonrakı qalıq 100 km-dən az olarsa, 100 km kimi götürülür.

Əgər bələdçi, avtoqatar və avtomobil sürücüləri özü ayrı vaqonda yük olmadan, (tepluşkada) (YHN kodu 99200000) gedərsə, onda bələdçinin gediş haqqından əlavə olaraq həmin vaqonun daşınma haqqı aşağdakı kimi hesablanır:

- daşıyıcıya məxsus yük vaqonunda və tepluşkada hər ox-km üçün **0,23 isveçrə frankı** ilə;
- özəl (daşıyıcıya məxsus olmayan) və ya icarəyə götürülmüş yük vaqonunda hər ox-km üçün **0,20 isveçrə frankı** ilə;
- daşıyıcıya məxsus sərnişin vaqonunda hər ox-km üçün **0,35 isveçrə frankı** ilə.
-özəl (daşıyıcıya məxsus olmayan) və ya icarəyə götürülmüş sərnişin vaqonunda (vaqonun sinifindən aslı olmayaraq) hər ox-km üçün **0,30 isveçrə frankı** ilə.

Tarif Razılaşması iştirakçılarının MDB üzvü olan ölkələri, habelə MDB üzvü olan ölkələrlə Gürcüstan, Latviya, Litva və Estoniya arasında hərəkət edən örtülü vaqonda ev əşyaları ilə birgə gedən bələdçilərin gediş haqları, Müstəqil Dövlətlər Birliyi dövlətlərinin Dəmir yol nəqliyyatı üzrə Şurasının 62-ci iclasında təsdiq edilmiş ev əşyaları ilə birgə gedən bələdçilərin gediş haqlarının tutulması və beynəlxalq daşınmalarda daşınma sənədlərinin (BDYS) tərtib edilməsi haqqında Qaydalara müvafiq olaraq hesablanır (sonradan edilmiş əlavə və düzəlişlər nəzərə alınmaqla).

## 3.10. Çıxarılan və çıxarılmayan avadanlıqlarla təchiz olunmuş vaqonlarda yüklərin daşınması

**3.10.1.** Kütləsi vaqon tarasına daxil olunmayan daşınma vasitələri ilə, habelə çıxarılan və çıxarılmayan avadanlıqlarda təchiz olunmuş vaqonlarda daşınan yüklərin daşınma haqqı, yükün çəkisi ilə vaqondakı daşınma vasitələrinin və ya çıxarılan və çıxarılmayan avadanlıqların ümumi çəkisinə müvafiq tarif qiymətini tətbiq etməklə hesablanır.

**3.10.2.** Tarif Razılaşması iştirakçıları olan dəmir yollarına mənsub olan daşınma vasitələri geri qaytarılarkən daşınma haqqı tutulmur. Əgər bu daşınma vasitələri özəl (daşıyıcıya məxsus olmayan) və icarəyə götürülmüş vaqonda yerinə yetirilərsə (transportyorlar başqa), vaqonun boşaldılıb geriyə qaytarılması üçün daşıma haqqı hər 1 ox-km-ə **0,10 isveçrə frankı** hesablanır.

**3.10.3.** Dəmir yollarına aid olmayan daşınma vasitələrinin haqqı bu Tarif Siyasətinin qaydalarına əsasən hesablanır.

**3.10.4.** Kütləsi vaqon tarasına daxil olunmayan çıxarılmayan avadanlıqlarla təchiz olunmuş, özəl (daşıyıcıya məxsus olmayan) və icarəyə götürülmüş vaqonlar yüklənməyə göndərildikdə və boşaltmadan geri qayıtdıqda, daşınma haqqı hər 1 ox-km üçün **0,12 isveçrə frankı** ilə hesablanır.

## 3.11. Ölülərin tabutlarda daşınması

MDB dövlətləri arasında, habelə MDB dövlətləri ilə Gürcüstan, Latviya, Litva, Estoniya arasında ölülərin tabutlarda vaqon göndərmələri ilə daşınması zamanı daşınma haqqı BTT-nin qaydalarına əsasən hesablanır və **0,10 əmsalı** tətbiq edilir.

## 3.12. Ayrı lokomotivlə daşınmalar

Yükgöndərənin sifarişi əsasında daşımalara ayrıca lokomotivdən istifadə edilməsi bütün hallarda "ADY" QSC ilə əvvəlcədən razılaşdırılır və BDYS (SMQS) qaiməsinin 64-cü sütununda daşıyıcı tərəfindən "ayrı lokomotivlə" sözləri qeyd olunur.

Daşımalara (elektrik qatarı, konteyner və s.) ayrıca lokomotivdən isifadə tələb olunarsa, BTT-nin 7-ci cədvəlindəki daşıma tarifləri tətbiq edilməklə hesablanır və **5.00-dən az olmamaq** şərti ilə əmsal tətbiq edilir. Həmin daşımalara tepluşka, qoruyucu vaqon, bələdçilərin daşınması və s. nəzərdə tutularsa Tarif Siyasətinə uyğun hesablanır və **5.00-dən az olmamaq** şərti ilə əmsal tətbiq edilir.

## 3.13. Tərəflərin razılığı ilə yükün çatdırılma müddətinin azaldılması

**3.13.1.** Tərəflərin razılığı ilə yükün çatdırılma müddəti azaldıla bilər. Yükün qısa müddətdə çatdırılması tərəflər arasında razılaşdırıldığı halda, göndərən tərəfindən BDYS (SMQS) qaiməsinin "yükün adı" 15-ci sütununda yükün qısa müddətdə çatdırlması ilə bağlı məlumatları qeyd edir.

Bununla da daşınma xərcinin ödənişi (vaqon, İNV və ANV-də) tarif siyasətinin müvafiq qaydalarına uyğun olaraq hesablanır:

- Vaqon yük qatarının tərkibində daşınarsa - **1.50 əmsal** tətbiq olunur
- Vaqon sərnişin qatarının tərkibində daşınarsa - **2.00 əmsal** tətbiq olunur
- Vaqon konteyner qatarının tərkibində daşınarsa - **1.00 əmsal** tətbiq olunur

## 3.14. Tarif Siyasətində nəzərə alınmayan hallar

Bu Tarif Siyasətində nəzərə alınmayan hallarda BTT-nin qaydaları rəhbər tutulmalıdır («Kütləvi yüklər» dən başqa).

## 4. Ev əşyalarının daşınması

MDB üzvü olan dövlətlərin, Gürcüstan, Latviya, Litva və Estoniyanın arasında daşınan ev əşyalarının (YHN kodu 9901) (yükgöndərən və yük alan fiziki şəxslər başa düşülür) köçürülmə zamanı (habelə bələdçinin müşayiəti ilə) daşınma haqları, Müstəqil Dövlətlər Birliyi dövlətlərinin Dəmir yol nəqliyyatı üzrə Şurasının 62-ci iclasında təsdiq edilmiş ev əşyalarının və bələdçilərin gediş haqlarının tutulması və beynəlxalq daşınmalarda daşınma sənədlərinin tərtib edilməsi haqqında Qaydalara müvafiq olaraq hesablanır (sonradan edilmiş əlavə və düzəlişlər nəzərə alınmaqla).

Tarif Razılaşması iştirakçıları olan dövlətlərin dəmir yolları ilə MDB ölkələrindən və Gürcüstandan, Latviyadan, Estoniyadan üçüncü ölkələrə (Litvadan başqa) və əksinə daşınan, həmçinin üçüncü ölkələrdən üçüncü ölkələrə tranzit daşınan ev əşyalarının daşınma haqları və yükləri müşayiət edən bələdçilərin gediş haqları bu Tarif Siyasətinin 3 bəndində göstərildiyi kimi hesablanır.

## 5. Bir vaqondan digər vaqona yüklənən yüklərin daşınma haqlarının hesablanması

**5.1 Müxtəlif endə təkər izli dəmir yollarının dəyişilməsi ilə əlaqədar olaraq bir vaqondan digər vaqona yüklənən yüklər.**

**5.1.1** Əgər yük yolun eninin dəyişilməsi ilə əlaqədar olaraq bir vaqondan boşaldılıb ancaq bir vaqona yüklənərsə, bu halda yenidən yüklənən yükün daşınma haqqı bu Tarif siyasətinin yenidən yüklənən vaqon üçün nəzərdə tutulmuş qaydalarına görə hesablanır.

**5.1.2.** Əgər bir vaqon göndərməsi ilə gəlmiş yük yolun eninin dəyişilməsi ilə əlaqədar olaraq sərhəd stansiyasında bir vaqondan boşaldılıb bir neçə vaqona yüklənərsə onda daşınma haqqı, bu Tarif Siyasətinin qaydalarına müvafiq olaraq hər bir vaqon üçün müstəqil vaqon göndərməsi kimi hesablanır.

Bu halda daşınmanın qiymətləri və hesablama çəkisi bu vaqonlara yüklənmiş yüklərin həqiqi çəkisinə müvafiq olaraq müəyyən edilir.

**5.1.3.** Əgər sərhəd stansiyasında iki və daha çox vaqon göndərməsi ilə eyni yük alanın ünvanına və eyni stansiyaya gələn yük iki və daha çox vaqondan yolun eninin dəyişməsi ilə əlaqədar olaraq bir vaqona yüklənərsə, onda daşınma haqqı hər bir qaimə üzrə göndərmənin yuvarlaqlaşdırılmış həqiqi çəkisinə görə ayrılıqda hesablanır. Hesablayarkən vaqona yüklənmiş yüklərin ümumi çəkisinə müvafiq olan daşınmanın qiymətini, hər bir göndərmələrin tam tona qədər yuvarlaqlaşdırılmış həqiqi çəkisinə vurmaq lazımdır.

Bu bənd yüklərin bir neçə vaqondan bir vaqona tam yükləndiyi hallar üçün qüvvədədir.

**5.1.4.** Əgər eyni yük alanın ünvanına və eyni stansiyaya göndərilən bir vaqona digər vaqon göndərmələrinin göndərmənin əsas hissəsinə sığmayan hissələri yüklənərsə (habelə iki və daha artıq vaqon göndərmələrinin əsas hissələr daşınan vaqona sığmayan hissələri), bu halda daşınmanın qiyməti, vaqona yüklənmiş bütün hissələrin həqiqi çəkilərinin cəminə müvafiq olan çəki kateqoriyasına uyğun təyin edilir.

Bu halda hər bir göndərmənin və göndərmə hissələrinin daşınma haqqı aşağıdakı kimi hesablanır:

- əgər vaqonda olan bütün göndərmələrin və göndərmə hissələrinin tam tonadək yuvarlaqlaşdırılmş həqiqi çəkilərinin cəmi tarif qiyməti müəyyən edilən çəki kateqoriyasına bərabər və ya artıq olarsa - daşınmanın hər bir göndərmənin və göndərmə hissələrinin tam tonadək yuvarlaqlaşdırımış həqiqi çəkilərinə vurulur;
- əgər vaqonda olan bütün göndərmələrin və göndərmə hissələrinin tam tonadək yuvarlaqlaşdırılmış həqiqi çəkilərinin cəmi daşınmanın müəyyən edilən çəki kateqoriyasından az olarsa çəki kateqoriyasına müvafiq olan daşınmanın göndərmənin və göndərmə hissələrinin tam tonadək yuvarlaqlaşdırımış ümumi çəkisinə vurulur və alınmış qiymət sonradan göndərmələrin və göndərmə hissələrinin həqiqi çəkilərinə proporsional olaraq bölüşdürülür;

**5.1.5.** Yenidən yüklənmə stansiyasında **BDYS-nin (SMQS,SİM/SMQS)** qaiməsinin hər bir yenidən yüklənmiş vaqonda olan göndərmənin (göndərmə hissəsinin) çəkisi və bu vaqona yüklənmiş göndərmələrin (göndərmə hissələrinin) ümumi çəkisi göstərilməlidir

**5.2. Eyni təkər izli eni olan yolda vaqona yükün yenidən yüklənməsi**

**5.2.1.** Əgər bir vaqon göndərməsi ilə gəlmiş yük, eyni təkər izli enində olan yolda, yol boyu dəmir yolundan aslı olmayan və başqa səbəbdən bir vaqondan boşaldılıb bir neçə vaqona yüklənərsə onda daşınma haqqı, bu Tarif siyasətinin 5.1.1.- 5.1.4. qaydalarına müvafiq olaraq hər bir vaqon üçün müstəqil vaqon göndərməsi kimi hesablanır.

**5.2.2.** Daşıyıcıdan asılı olmayan səbəbdən yol boyu yükün yenidən yüklənməsi zamanı göndərənin razılığı ilə özəl vaqondan (daşıyıcıya məxsus olmayan) inventar parka məxsus vaqona (daşıyıcıya məxsus olan) yükləndikdə, daşıma haqqı ayrıca yüklənmə stansiyasından özəl vaqona (daşıyıcıya məxsus olmayan) və inventar parkın vaqonuna (daşıyıcıya məxsus olan) yükləmə stansiyasına kimi olan məsafə götürülməklə bu Tarif siyasətinin qaydalarına uyğun hesablanır.

## 6. Əlavə və digər yığımlar

**6.1** Əlavə və digər yığımların tətbiqi “ADY” QSC-nin daxili qaydaları ilə tənzimlənir.

**6.2.** BTT və VTT-nin əlavə və digər yığımlarından başqa, müxtəlif endə təkər izli dəmir yollarında yüklərin yenidən yüklənməsi və boşaldılması zamanı üçüncü ölkələrin vaqonundan istifadəyə görə yığımlar, hər bir vaqon üçün aşağdakı hallarda **60 isvecrə frankı** tətbiq olunur:

- 1520 mm təkər izli vaqonlara yüklərin yüklənməsi zamanı;
- üçüncü ölkələrin vaqonlardan yüklərin boşaldılması zamanı vaqondan istifadəyə görə;
- 1520 mm təkər izli vaqonlardan yüklərin üçüncü ölkələrdən göndərilən boş vaqonlara yüklənməsi zamanı, vaqonlardan istifadəyə görə;
- Konteyner daşımaları zamanı üçüncü ölkələrin vaqonlarından istifadəyə görə yığımlar, vaqonlardakı hər bir ədəd konteyner ücün proprosional bölünərək müəyyən edilir.

**6.3.** Qaimənin əlavə nüsxələri çatışmadığı halda, tranzit dəmir yolu qaimənin əlavə nüsxələrini tərtib edir və xərcləri BDYS-nin (SMQS) qaydalarına əsasən yükgöndərən dəmir yoluna aid edir.

Yol sənədlərinin hər bir əlavə nüsxəsinin hazırlanmasının qiyməti **8,7 isveçrə frankıdır**.

## 7.Daşıma sənədlərinin tərtib edilməsi, daşıma haqlarının hesablanması

**7.1.** Beynəlxalq daşınmalar zamanı daşınma sənədlərinin tərtib edilməsi aşağıda göstərilən normativ sənədlərə əsasən müəyyənləşdirilir:

- Dəmir yolu ilə Beynəlxalq Yükdaşımalar Sazişinə (SMQS);
- Tarif Razılaşması iştirakçılarının dəmir yolları arasında, habelə Tarif Razılaşması iştirakçılarının dəmir yolları ilə Latviya və Litva Respublikaları arasında daşınmalar zamanı, MDB ölkələri dəmiryol administrasiyaları ilə Latviya, Litva və Estoniya Respublikaları arasında Beynəlxalq Yükdaşımalar Sazişinin (OP SMQS) ayrı-ayrı normalarının tətbiq edilməsinin xüsusiyyətləri haqqında Razılaşmaya;
- SİM/SMQS qaiməsi üzrə qaydalara;
- «ADY» QSC üzrə yükdaşıma qaydalarına;

Daşınma haqqı ekspeditor şirkətləri vasitəsi ilə ödənildiyi hallarda yükgöndərən daşınma sənədlərində, daşınma haqqı ödənilən dəmir yolunun qısaldılmış adını, nəqliyyat şirkətinin (ekspeditorun) adını və dəmir yolu tərəfindən verilən kodu göstərməlidir.

**7.2.** Daşınma ödənişləri dedikdə daşıma haqqı, yükü müşayiət edən bələdçi, avtoqatarın və avtomobilin sürücülərinin gediş haqqı, vaqonun arabacıqlarının dəyişdirilməsi, yüklərin yenidən yüklənməsi, daşınmaya müqavilə bağlanan müddətdən yükün alıcıya verilmə müddətinə qədər yaranmış əlavə yığımlar və digər ödənişlər nəzərdə tutulur:

Daşınma haqqı daşıma sənədlərinə ştempelin vurulduğu təqvim günü, qüvvədə olan tariflərlə hesablanır.

Yük daşıyıcıdan asılı olmayan səbəblərdən, vaqonun yükgötürmə qabiliyyətindən artıq yüklənməsi və ya təkər cütünün relslərə statik yükünün yol veriləndən artıq olmasını aşkar edilməsi zamanı həmin artıq yükün başqa vaqona yüklənən tarixdən daşıma haqqları hesablanır.

Tarif razılşması iştirak çısı olan dövlətlərin dəmir yolu stansiyaları arasında birbaşa dəmiryolu - su nəqliyyatı ilə daşımalar zamanı, daşınma haqqı daşıma sənədlərinə ştempelin vurulduğu təqvim günü qüvvədə olan tariflərlə aşağdakı kimi hesablanır:

Göndərmə stansiyası – yükü birinci gondərən dəmir yolu stansiyadan;

Yükün su nəqliyyatından dəmir yolu stansiyasında aşırılması - yükü birinci göndərən liman stansiyasından.

**Əlavə 1**

## MDB ölkələrinin Dəmiryol müdiriyyətlərinin (Dəmir yollarının) 17 fevral 1993-cü ildə qəbul etdikləri Tarif Razılaşmasının iştirakçıları

| Kodu | Simvolu | Dəmir yollarının adları |
|---|---|---|
| 57 | АЗ | «Azərbaycan Dəmir Yolları» QSC |
| 58 | АРМ | «Cənubi Qafqaz dəmir yolu» QSC |
| 21 | БЧ | «Belorusiya Dəmir yolları» QO |
| 25 | ЛДЗ | «Latvijas dzelztselş» QAO |
| 28 | ГР | «Gürcüstan Dəmir yolu» SC |
| 27 | КЗХ | «Kazakstan Temir Jolı» AO NK |
| 59 | КРГ | «Qırğız Təmir Jolı» QP NK |
| 23 | ЧФМ | «Moldaviya Dəmir yolu» QP |
| 20 | РЖД | «Rusiya Dəmir yolları» ASC |
| 66 | ТДЖ | «Roxi oxani Tocikiston» QUP |
| 67 | ТРК | «Türkmənistan dəmir yolu nəqliyyatı nazirliyi» |
| 29 | УТИ | «Özbəkistan Temir Yulları» AO |
| 22 | УЗ | «Укрзалізниця» PAT |
| 26 | ЭВР | «Eesti Raudtye» AO |

# HİSSƏ 2
# İdxal, ixrac və tranzit tariflərinin müəyyən edilməsi Qaydaları

**Qayda 1. İdxal, ixrac və tranzit daşımaları:**

Universal vaqonlarda vaqon göndərmələri ilə i**dxal və ixrac** daşınmalarının tarif qiymətləri BTT-nin baza qiymətləri **(cədvəl 7)** əsasında, Hissə 2-də Qayda 1-ə əsasən hesablandıqdan sonra, Azərbaycan ərazisində daşınma məsafəsindən asılı olan əmsallar (qayda 1.1) və vaqonların çəki kateqoriyaları üzrə əmsallar **(cədvəl 2)** tətbiq edilməklə **cədvəl 3** hazırlanmışdır.

Universal vaqonlarda vaqon göndərmələri ilə t**ranzit** daşınmaların tarif qiymətləri BTT-nin baza qiymətləri **(cədvəl 7)** əsasında, Hissə 2-də Qayda 1-ə əsasən hesablandıqdan sonra, Azərbaycan ərazisində daşınma məsafəsindən asılı olan əmsallar (qayda 1.2) və vaqonların çəki kateqoriyaları üzrə əmsallar (cədvəl 2) tətbiq edilməklə cədvəl 4 hazırlanmışdır.

İnventar parkın (daşıyıcıya məxsus) universal vaqonlarında idxal, ixrac və tranzit rejimdə daşınan yüklərin baza qiymətləri hesablanarkən BTT-nin baza qiymətlərinə aşağıdakı məsafə əmsalları tətbiq edilir:

| | |
|---|---|
| 01 km-dən – 200 km daxil olmaqla | **-1,0** |
| 201 km və yuxarı | **- 0,68** |

Universal vaqonlarda idxal, ixrac və tranzit daşınmalarda BTT-nin 191-200 km tarif məsafəsi üçün nəzərdə tutulmuş baza qiyməti sonrakı məsafələrin baza qiymətlərinin hesablanması üçün əsas qiymət kimi istifadə olunmuşdur. Yəni 201 km tarif məsafəsindən başlayaraq yüksək tarif məsafələrində BT-nin baza qiymətini müəyyən etmək üçün aşağıda göstərilən qaydadan istifadə olunur:

$$\mathbf{BT_{baza} = 0,68 \times (BTT_{baza} - BTT_{191\text{-}200}) + BTT_{191\text{-}200}\ ;}$$

**$BT_{baza}$** - İdxal-ixrac və tranzit daşımaları üzrə baza tarifi.

**$BTT_{baza}$** -Beynəlxalq Tranzit Tariflərinin (MTT) baza qiyməti

**$BTT_{191\text{-}200}$ –** Beynəlxalq Tranzit Tariflərinin (MTT) 191-200 km məsafəsi üzrə baza qiyməti

**$BTT_{baza}$** və **$BTT_{191\text{-}200}$** düsturdakı baza qiyməti 7-ci cədvəldən götürülür.

**Qayda 1.1. Idxal və ixrac daşımalarda Azərbaycan ərazisi üzrə məsafə əmsalları:**

Idxal və ixrac daşınmalarda BTT-nin yuxarıdakı qayda ilə hesablanmış baza qiymətlərinə Azərbaycan ərazisi üzrə aşağıdakı əmsallar tətbiq edilir:

| | |
|---|---|
| - 01 km-dən - 210 km.daxil olmaqla | - **0,90** |
| - 211 km-dən - 300 km.daxil olmaqla | - **1.00** |
| - 301 km-dən - 450 km.daxil olmaqla | - **0,83** |
| - 451 km və yuxarı | - **0,87** |

**Qayda 1.2. Tranzit daşımalarda Azərbaycan ərazisi üzrə məsafə əmsalları:**

Tranzit daşınmalarda BTT-nin yuxarıdakı qayda ilə hesablanmış baza qiymətlərinə Azərbaycan ərazisi üzrə aşağıdakı əmsallar tətbiq edilir:

- 01 km-dən - 400 km.daxil olmaqla **- 0,90**
- 401 km-dən - 450 km.daxil olmaqla **- 0,96**
- 451 km-dən yuxarı **- 0,90**

**Cədvəl 2**

| **Çəki kateqoriyaları** | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| ***25t*** | ***30t*** | ***35t*** | ***40t*** | ***45t*** | ***50t*** | ***55t*** | ***60t*** |
| 1,00 | 0,93 | 0,83 | 0,75 | 0,68 | 0,63 | 0,59 | 0,55 |

Universal vaqonlarda vaqon göndərmələri ilə daşınan yüklərin daşınma haqlarını hesablayarkən yükün çəkisi çəki kateqoriyasından az və ya ona bərabər olarsa, hesablama çəkisi çəki kateqoriyasına bərabər götürülür, yükün çəkisi çəki kateqoriyasından artıq olarsa, hesablama çəkisi yükün tam çəkisi götürülür. Yükün çəkisi 500 kq və yuxarı olarsa yuvarlaqlaşdırılır və 1 ton götürülür. 500 kq-dan az olarsa nəzərə alınmır.

**Qayda 2. Çənlərdə və bunker yarımvaqonlarda daşınma**

Çənlərdə və bunker yarımvaqonlarda daşınan maye yüklərin daşınma haqqı hesablanarkən BTT-nin 25 ton çəki kateqoriyasına müvafiq baza qiymətləri əsas götürülür və aşağıdakı əmsallardan istifadə olunur:

BTT-nin baza qiymətlərinə aşağıdakı əmsallar tətbiq edilmişdir :

01 km-dən – 200 km daxil olmaqla **- 1,00**

201 km və yuxarı **- 0,50**

Çənlərdə və bunker yarımvaqonlarda daşınan Neft və neft məhsullarının (27090010, 27090090 2712, 2713, 27149000, 2715, 2721-2749, 340319, 340399, 3404, 381121, 381129, 38170050, 38241000 YHN mövqeli, submövqeli və kodlu): daşınma haqqı hesablanarkən BTT-nin 191-200 km tarif məsafəsi üçün nəzərdə tutulmuş tarif qiyməti sonrakı məsafələrin baza qiymətlərinin hesablanması üçün əsas qiymət kimi istifadə olunmuşdur. Yəni 201 km tarif məsafəsindən başlayaraq yüksək tarif məsafələrində BT-nin baza qiymətini müəyyən etmək üçün aşağıda göstərilən qaydadan istifadə olunur:

$$BT_{baza} = 0{,}50 \times (BTT_{baza} - BTT_{191\text{-}200}) + BTT_{191\text{-}200};$$

Bundan əlavə çənlərdə və bunker yarımvaqonlarda neft və neft məhsullarının daşınması zamanı BTT-nin yuxarıdakı qayda ilə hesablanmış baza qiymətlərinə **Azərbaycan ərazisi** üzrə aşağıdakı əmsallar tətbiq edilir:

**Neft və neft məhsulları üçün Azərbaycan ərazisi üzrə məsafə əmsalları:**

Neft və neft məhsulları üçün (27090010, 27090090 2712, 2713, 27149000, 2715, 2721-2749, 340319, 340399, 3404, 381121, 381129, 38170050, 38241000 YHN mövqeli, submövqeli və kodlu):

- 01 km-dən - 100 km.daxil olmaqla - **1,00**
-101 km-dən - 300 km.daxil olmaqla - **0,70**
-301 km-dən - 500 km.daxil olmaqla - **0,410**
-501 km-dən - 530 km.daxil olmaqla - **0,424**
-531 km-dən - 600 km.daxil olmaqla - **0,431**
-600 km.və yuxarı - **0,455**

**Sıxılmış qazlar üçün** BTT-nin baza qiymətlərinə Azərbaycan ərazisi üzrə aşağıdakı yüklərə məsafəyə görə əmsallar tətbiq edilir:

**Enerjili qazlar** - 2705, 2711 YHN mövqeli - **0,70**
421-430 km. tarif məsafəsində əlavə olaraq - **1,07**

**Qazlar və Karbohidrogenlər YHN** 27071-27075, 28011, 27079920, 28013000 (ftor), 28013010, 28041-28044, 28112100, 28121100, 28141, 28539030, 2901, 2902, 29321200, 29333100, 29333955, 3817 ( 38170050-dən başqa) mövqeli, submövqeli və kodlu yüklər üçün **-1,00**

**Spirt və fenollar YHN** 1520, 27079980, 2905-2908, 29094100 (dietilenqlikol) 29321300, 3820, 38237, 3826, 39053 - **0,75**
421-430 km. tarif məsafəsində əlavə olaraq - **1,07**

**Çənlərdə daşınan tez xarab olan maye yüklər** - 0401, 04031000-4031039, 04039091-04039099, 04041000, 04041048-04049089, 0405, 0406, 1501-1506, 15161000-15161090, 151790 (15179091 YHN mövqelidən başqa), 15180091-15180099 (bitki yağlarından və onların fraksiyalarından başqa), 2009, 2105, 2201-2206, YHN mövqelilər,submövqeli və kodlu yüklər üçün - **0,70**
421-430 km. tarif məsafəsində əlavə olaraq - **1,07**

**Çənlərdə daşınan digər yüklər (yuxarıda qeyd edilən YHN mövqeli yüklərdən başqa bütün yüklər)** üçün - **0,60**
421-430 km. tarif məsafəsində əlavə olaraq - **1,08**

**Özəl (daşıyıcıya məxsus olmayan) çənlərdə** 27071, 27072, 27073, 290211, 29022, 29023, 290241-290244, 29026, 29027, 29029 YHN mövqeli yüklərin daşınma haqqı hesablanarkən
421-430 km. tarif məsafəsində əlavə olaraq - **1,07**

## Qayda 3. Universal konteynerlər (özəl və şəxsi konteynerlər istisna olmaqla)

Tarif Siyasətinin (3.4.3-də göstərilənlərdən və 3.6-da göstərilən təhlükəli yüklərdən başqa) 10, 20, 30 və 40 futluq konteynerlərin daşınma haqqı, BTT-də müvafiq kateqoriyalı yüklü və boş konteynerlər üçün nəzərdə tutulmuş baza qiymətlərinə aşağıda göstərilən əmsallar tətbiq edilməklə hesablanır.

-01 km-dən - 150 km.daxil olmaqla - **1,00**

-151 km və yuxarı - **0,35**

Universal konteynerlərin daşınma haqqı hesablanarkən BTT-nin 149-150 km tarif məsafəsi üçün nəzərdə tutulmuş baza qiyməti sonrakı məsafələrin baza qiymətlərinin hesablanması üçün əsas qiymət kimi istifadə olunmuşdur. Yəni 151 km tarif məsafəsindən başlayaraq yüksək tarif məsafələrində BT-nin baza qiymətini tapmaq üçün aşağıda göstərilən qaydadan istifadə olunur:

$$BT_{baza} = 0,35 \times (BTT_{baza} – BTT_{141\text{-}150}) + BTT_{141\text{-}150};$$

**Konteyner daşınmalarında Azərbaycan ərazisi üzrə məsafə əmsalı:**

Konteyner daşınmalarında BT-nin yuxarıdakı qayda ilə hesablanmış baza qiymətlərinə Azərbaycan ərazisi üzrə aşağıdakı əmsal tətbiq edilir:

401km və yuxarı - **0,93**

Yüklü və boş ortatonnajlı konteynerlərin daşınma haqları (MDB ölkələri, Gürcüstan, Latviya, Litva və Estoniya arasında ev əşyalarının daşınmasından başqa) BTT-nin müvafiq kateqoriyalı ortatonnajlı konteynerlər üçün nəzərdə tutulmuş baza qiymətlərinə yuxarıda göstərilən əmsallar tətbiq edilməklə hesablanır.

20 futluq universal konteynerlərin yüklü halda, maksimal brutto(trafaret) kütləsi 30 ton və yuxarı olduqda, habelə faktiki brutto kütləsi 24 tondan artıq olduqda bu konteynerlərin daşınma haqqı bu Tarif Siyasətinin 3.4.1.1. bəndində 20 futluq konteynerlər üçün nəzərdə tutulan qayda ilə hesablanır və **1,20 əmsalı** tətbiq edilir.

40 futdan artıq kateqoriyalı yüklü və boş konteynerlərin daşınma haqqı bu Tarif Siyasətinin 3.4.1.1. bəndində 40 futluq konteynerlər üçün nəzərdə tutulan qayda ilə hesablanır və **1,20 əmsalı** tətbiq edilir.

Konteynerlərdə daşınan 28045090, 28049, 28054, 32121, 7106-7112, 7115, 74 (7401, 7418-dən başqa),75 (7501-dən başqa), 76 (7615-dən başqa), 78, 79, 80, 81 (81052-dən başqa), 8302, 83079, 8309, 8311, 85481 YHN mövqeli yüklərin daşınma haqqı 3.4.1.1-3.4.1.2. bəndlərində olduğu kimi hesablanır və **1,20 artırma əmsalı** tətbiq edilir.

Universal konteynerlərdə daşınan və eyni yükgöndərən tərəfindən eyni yük alana göndərilən müxtəlif adlı yüklərin, həmçinin tarif qiyməti artırılmalı olan yüklərin (təhlükəli yüklərin, əlvan metalların) daşınma haqları, hər bir yükün konteynerdə olan yüklərin ümumi çəkisində tutduğu çəkiyə uyğun olaraq hesablanır.

Tarif qiyməti artırılmalı olan yükün daşınma haqqı, həmin yükün konteynerlərdə olan yüklərin ümumi çəkisində tutduğu çəkiyə görə müəyyənləşdirilir və artırılır.

# HİSSƏ 3

# ƏLAVƏ MƏLUMATLAR

## «Azərbaycan Dəmir Yolları» QSC-nin tranzit məsafələri

| Dəmir yolu müdiriyyətinin kodları | Sərhəd stansiyaları | Sərhəd stansiyaları arasındakı məsafələr | | | | |
|---|---|---|---|---|---|---|
| | | AZ:Yalama<br>RJD: Samur | AZ:Böyük -Kəsik<br>QR:Qardabani | AZ: Bakı Ticarət Limanı<br>TRK: Turkmənbaşı<br>KZX: Aktau<br>KZX : Kurik | AZ: Culfa<br>RAİ: İran | AZ:Astara<br>RAİ:İran |
| | **Sərhəd keçid stansiyalarının mənsub olduğu dəmir yollarının kodu** | 57<br>20 | 57<br>28 | 57<br>67<br>27 | 57<br>96 | 57<br>96 |
| 57<br>20 | AZ: Yalama<br>RJD:Samur | - | 680 | 271 | 673 | 504 |
| 57<br>28 | AZ:Böyük-Kəsik<br>QR:Qardabani | 680 | - | 429 | 755 | 586 |
| 57<br>67<br>27<br>27 | AZ:Bakı Ticarət Limanı<br>TRK:Turkmənbaşı<br>KZX:Aktau<br>KZX: Kurik | 271 | 429 | - | 419 | 253 |
| 57<br>96 | AZ:Culfa<br>RAİ:İran | 673 | 755 | 419 | - | 535 |
| 57<br>96 | AZ:Astara<br>RAİ:İran | 504 | 586 | 253 | 535 | - |

## Azərbaycan Dəmir yolu stansiyaları arasında məsafələr

| *Stansiyaların adı* | *Stansiyaların kodu* | *Yalama (eksp)* | *Astara (eksp)* | *Böyük-Kəsik (eksp)* | *Culfa* | *Ələt (eksp) Bakı ticarət limanı* |
|---|---|---|---|---|---|---|
| *1* | *2* | *3* | *4* | *5* | *6* | *7* |
| **Ağdam** | 555506 | 549 | 455 | 287 | 621 | 298 |
| **Ağstafa** | 557200 | 633 | 539 | 47 | 705 | 382 |
| **Alabaşlı** | 556602 | 551 | 457 | 129 | 623 | 300 |
| **Astara** | 554109 | 504 | 0 | 586 | 532 | 253 |
| ***Astara (eks.aşır)*** | **554503** | | | | | |
| **Atbulaq** | 548907 | 274 | 240 | 406 | 406 | 23 |
| **Bakı yük** | 547105 | 205 | 325 | 501 | 491 | 92 |
| **Bakı yük terminal** | 547603 | 205 | 325 | 501 | 491 | 92 |
| **Balakən** | 559704 | 634 | 540 | 372 | 706 | 383 |
| **Bartaz** | 551308 | 556 | 418 | 638 | 114 | 305 |
| **Barxudarlı** | 557501 | 663 | 569 | 77 | 735 | 412 |
| **Başbaşı** | 550700 | 727 | 589 | 809 | 57 | 476 |
| **Bərdə** | 555309 | 503 | 409 | 241 | 575 | 252 |
| **Bərguşad** | 554804 | 414 | 320 | 266 | 486 | 163 |
| **Biləcəri** | 546808 | 192 | 312 | 488 | 478 | 79 |
| **Binə** | 547707 | 227 | 347 | 523 | 513 | 114 |
| **Böyük Kəsik** | 558631 | 676 | 582 | 4 | 748 | 425 |
| ***Böyuk Kəsik (eksport)*** | **558701** | **680** | **586** | **0** | **752** | **429** |
| **Çarxi** | 545400 | 52 | 452 | 628 | 618 | 219 |
| **Cəlilabad** | 553303 | 414 | 90 | 496 | 442 | 163 |
| **Culfa** | 550004 | 670 | 532 | 752 | 0 | 419 |
| ***Culfa (eksport)*** | **550108** | **673** | **535** | **755** | **3** | **422** |
| **Daşburun** | 551906 | 426 | 288 | 508 | 244 | 175 |
| **Dəllər** | 556803 | 572 | 478 | 108 | 644 | 321 |
| **Dəlməmmədli** | 556000 | 521 | 427 | 159 | 593 | 270 |
| **Dübəndi** | 547904 | 242 | 362 | 538 | 528 | 129 |
| **Ələt baş** | 548502 | 261 | 243 | 419 | 409 | 10 |
| ***Ələt eksport-Aktau*** | **549204** | **271** | **253** | **429** | **419** | **0** |
| ***Ələt eksport-Kurik*** | **553002** | **271** | **253** | **429** | **419** | **0** |
| ***Ələt eksport-Türk.*** | **548803** | **271** | **253** | **429** | **419** | **0** |
| ***Bakı ticarət liman*** | **547302** | **271** | **253** | **429** | **419** | **0** |
| ***Bakı ticarət limanı (eks)*** | **547406** | **271** | **253** | **429** | **419** | **0** |
| ***Bakı ticarət limanı (aşır)*** | **547209** | **271** | **253** | **429** | **419** | **0** |
| **Ələt yeni** | 548703 | 266 | 238 | 424 | 405 | 15 |
| **Əsgəran** | 557304 | 563 | 469 | 301 | 635 | 312 |
| **Gəncə** | 556208 | 539 | 445 | 141 | 611 | 288 |
| **Giləzi** | 546009 | 125 | 379 | 555 | 545 | 146 |
| **Gilgilçay** | 545701 | 84 | 420 | 596 | 586 | 187 |

| *Stansiyaların adı* | *Stansiyaların kodu* | *Yalama (eksp)* | *Astara (eksp)* | *Böyük Kəsik (eksp)* | *Culfa* | *Ələt(eksp) Bakı ticarət limanı* |
|---|---|---|---|---|---|---|
| *1* | *2* | *3* | *4* | *5* | *6* | *7* |
| **Goran** | 555900 | 496 | 402 | 184 | 568 | 245 |
| **Göylərçöl** | 554402 | 366 | 272 | 362 | 438 | 115 |
| **Göyşaban** | 553801 | 469 | 35 | 551 | 497 | 218 |
| **Güzdək** | 546600 | 177 | 327 | 503 | 493 | 94 |
| **Hacıqabul** | 554202 | 304 | 210 | 376 | 376 | 53 |
| **Həkəri** | 551505 | 530 | 392 | 612 | 140 | 279 |
| **Abşeron** | 548004 | 204 | 300 | 476 | 466 | 67 |
| **Horadiz** | 551806 | 464 | 326 | 546 | 206 | 213 |
| **Hövsan** | 547800 | 232 | 352 | 528 | 518 | 119 |
| **İmişli** | 552207 | 386 | 248 | 468 | 284 | 135 |
| **Karçevan** | 551007 | 608 | 470 | 690 | 62 | 357 |
| **Keşlə** | 547001 | 200 | 320 | 496 | 486 | 87 |
| **Köçərli** | 555205 | 515 | 421 | 253 | 587 | 264 |
| **Kürdəmir** | 554607 | 380 | 286 | 300 | 452 | 129 |
| **Kürəkçay** | 557605 | 508 | 414 | 172 | 580 | 257 |
| **Ləcət** | 549505 | 13 | 491 | 667 | 657 | 258 |
| **Ləki** | 555008 | 446 | 352 | 234 | 518 | 195 |
| **Lənkəran** | 553905 | 474 | 30 | 556 | 502 | 223 |
| **Liman** | 553604 | 462 | 42 | 544 | 490 | 211 |
| **Mahmudlu** | 551702 | 486 | 348 | 568 | 184 | 235 |
| **Masallı** | 553407 | 428 | 76 | 510 | 456 | 177 |
| **Maştaga** | 549609 | 226 | 346 | 522 | 512 | 113 |
| **Mehri** | 551100 | 599 | 461 | 681 | 71 | 348 |
| **Mincivan** | 551204 | 544 | 406 | 626 | 126 | 293 |
| **Mingəçevir baş** | 555703 | 483 | 389 | 197 | 555 | 232 |
| **Mingəçevir şəhər** | 555807 | 501 | 407 | 215 | 573 | 250 |
| **Muğan** | 554306 | 316 | 222 | 364 | 388 | 65 |
| **Mürsəlli** | 552601 | 335 | 197 | 417 | 335 | 84 |
| **Müsüslü** | 554700 | 400 | 306 | 280 | 472 | 149 |
| **Naxçıvan** | 550803 | 715 | 577 | 797 | 45 | 464 |
| **Neftçala** | 553207 | 403 | 171 | 485 | 431 | 152 |
| **Nəvahi** | 549007 | 286 | 228 | 394 | 394 | 35 |
| **Ordubad** | 550907 | 631 | 493 | 713 | 39 | 380 |
| **Pirsaat** | 549100 | 294 | 220 | 386 | 386 | 43 |
| **Pirşağı** | 546507 | 238 | 358 | 534 | 524 | 117 |
| **Poylu** | 558400 | 647 | 553 | 33 | 719 | 396 |
| **Puta** | 548108 | 211 | 293 | 469 | 459 | 60 |
| **Qafan** | 551401 | 583 | 445 | 665 | 165 | 332 |
| **Qamışlıq** | 554005 | 489 | 15 | 571 | 517 | 238 |

| *Stansiyaların adı* | *Stansiyaların kodu* | *Yalama (eksp)* | *Astara (eksp)* | *Böyük Kəsik (eksp)* | *Culfa* | *Ələt(eksp) Bakı ticarət limanı* |
|---|---|---|---|---|---|---|
| *1* | *2* | *3* | *4* | *5* | *6* | *7* |
| **Qaradağ** | 548201 | 223 | 281 | 457 | 447 | 48 |
| **Qaradağ terminal** | 549702 | 230 | 288 | 464 | 454 | 55 |
| **Qasımlı** | 553500 | 444 | 60 | 526 | 472 | 193 |
| **Qax** | 559507 | 577 | 483 | 315 | 649 | 326 |
| **Qazax** | 557408 | 645 | 551 | 59 | 717 | 394 |
| **Qırıxlı** | 556509 | 560 | 466 | 138 | 632 | 309 |
| **Qızılburun** | 545805 | 94 | 410 | 586 | 576 | 177 |
| **Qızılca** | 556405 | 570 | 476 | 148 | 642 | 319 |
| **Qobustan** | 548409 | 247 | 257 | 433 | 423 | 24 |
| **Qovlar** | 557003 | 599 | 505 | 81 | 671 | 348 |
| **Qusarçay** | 545203 | 29 | 475 | 651 | 641 | 242 |
| **Quşçu körpü** | 556301 | 586 | 492 | 164 | 658 | 335 |
| **Saatlı** | 552300 | 357 | 219 | 439 | 313 | 106 |
| **Sabir** | 552508 | 352 | 214 | 434 | 330 | 101 |
| **Şabran** | 545608 | 75 | 429 | 605 | 595 | 196 |
| **Salahlı** | 558504 | 657 | 563 | 23 | 729 | 406 |
| **Salyan** | 553106 | 368 | 136 | 450 | 396 | 117 |
| **Saracalar** | 552404 | 346 | 208 | 428 | 324 | 95 |
| **Sarvan** | 545504 | 64 | 440 | 616 | 606 | 207 |
| **Şaxtaxtı** | 550606 | 755 | 617 | 837 | 85 | 504 |
| **Şəki** | 559403 | 539 | 445 | 277 | 611 | 288 |
| **Şəmkir** | 556706 | 562 | 468 | 118 | 634 | 311 |
| **Sənqaçal** | 548305 | 238 | 266 | 442 | 432 | 33 |
| **Sənqaçal ter.(aşırma)** | 548606 | 240 | 264 | 440 | 430 | 31 |
| **Şərur** | 550502 | 781 | 643 | 863 | 111 | 530 |
| ***Şərur (eksport)*** | 550409 | 807 | 669 | 889 | 137 | 556 |
| **Şirvan baş** | 552705 | 309 | 195 | 391 | 361 | 58 |
| **Sitalçay** | 546102 | 135 | 369 | 545 | 535 | 136 |
| **Siyəzən** | 545909 | 105 | 399 | 575 | 565 | 166 |
| **Soltanlı** | 552902 | 497 | 359 | 579 | 173 | 246 |
| **Soyuq-Bulaq** | 558608 | 666 | 572 | 14 | 738 | 415 |
| **Sumqayıt baş** | 546403 | 167 | 337 | 513 | 503 | 104 |
| **Suraxanı** | 549401 | 218 | 338 | 514 | 504 | 105 |
| **Təzəkənd** | 555402 | 521 | 427 | 259 | 593 | 270 |
| **Tovuz** | 557107 | 612 | 518 | 68 | 684 | 361 |
| **Ucar** | 554908 | 426 | 332 | 254 | 498 | 175 |
| **Vətəqə** | 552103 | 400 | 262 | 482 | 270 | 149 |
| **Xaçmaz** | 545307 | 42 | 462 | 638 | 628 | 229 |
| **Xanabad** | 559300 | 498 | 404 | 236 | 570 | 247 |

| *Stansiyaların adı* | *Stansiyaların kodu* | *Yalama (eksp)* | *Astara (eksp)* | *Böyük Kəsik (eksp)* | *Culfa* | *Ələt(eksp) Bakı ticarət limanı* |
|---|---|---|---|---|---|---|
| *1* | *2* | *3* | *4* | *5* | *6* | *7* |
| **Xankəndi** | 555608 | 576 | 482 | 314 | 648 | 325 |
| **Xələc** | 552001 | 412 | 274 | 494 | 258 | 161 |
| **Xələfli** | 551609 | 508 | 370 | 590 | 162 | 257 |
| **Xırdalan** | 546704 | 186 | 318 | 494 | 484 | 85 |
| **Xudat** | 545107 | 21 | 483 | 659 | 649 | 250 |
| **Yalama** | 545006 | 4 | 500 | 676 | 666 | 267 |
| ***Yalama (eksport)*** | **547508** | **0** | **504** | **680** | **670** | **271** |
| **Yaşma** | 546206 | 145 | 360 | 536 | 526 | 126 |
| **Yevlax** | 555101 | 471 | 377 | 209 | 543 | 220 |
| **Z.Tağıyev** | 546302 | 156 | 348 | 524 | 514 | 115 |
| **Z.Tağıyev çeşidləmə** | 546901 | 151 | 353 | 529 | 519 | 120 |
| **Zabrat II** | 547802 | 219 | 339 | 515 | 505 | 106 |
| **Zaqatala** | 559600 | 616 | 522 | 354 | 688 | 365 |
| **Zazalı** | 556104 | 528 | 434 | 152 | 600 | 277 |
| **Zəyəm** | 556903 | 585 | 491 | 95 | 657 | 334 |
| **Zorat** | 549806 | 115 | 389 | 565 | 555 | 156 |

## QEYD ÜÇÜN

# QEYD ÜÇÜN

# QEYD ÜÇÜN

## QEYD ÜÇÜN

# QEYD ÜÇÜN

# QEYD ÜÇÜN

## QEYD ÜÇÜN

Kitab “Tuna” QSC-nin

mətbəəsində çap edilmişdir

Ünvan: Nizami rayonu Keşlə qəsəbəsi, 1-ci Önünə küçəsi 19.

AZ1000, Bakı, Azərbaycan

Tel: +99412 447 15 25; +99412 447 15 16

Fax: +99412 567 96 84

E-mail: office@tuna.az

## YÜK DAŞIMALARI DEPARTAMENTİNİN TARİF ŞÖBƏSİ

"Azərbaycan Dəmir Yolları" QSC

+994 12 499 45 70

+994 12 499 48 52

Dilarə Əliyeva küç. 230
Bakı AZ1010

info@ady.az

www.ady.az

azerbaycandemiryollari

1822